# Dünyanın böyük təntənə və sevinclə qeyd etdiyi bayram: YENİ İL








***Müxtəlif dekorasiya və işıqlarla bəzədilmiş küknar ağacları, onun ətrafında insanların böyük sevinc və atəşfəşanlıqla Yeni ili qarşılamaları, bu bayramın iki əsas simvolundan biri olan Şaxta babanın öz hədiyyələri ilə uşaqları sevindirməsi Yeni ilin ən əlamətdar və maraqlı məqamlarındandır. Dünyanın müxtəlif ölkələrində Yeni il eyni gündə qeyd edilsə də, bu bayramı hər ölkə və xalq özünəməxsus şəkildə qarşılayır. Odur ki, uzun illərdən bəri, keçirilən köhnəni yolasalma, yenini qarşılama mərasimi olan Yeni ilə dair xeyli maraqlı adət-ənənə formalaşıb.***

## Yeni il necə yaranıb?

Böyük təntənə ilə qeyd edilən Yeni il bayramı təqvim ilinin dəyişməsidir. Roma imperatoru Yuli Sezarın eramızdan əvvəl 46-cı ildə tətbiq etdiyi yeni təqvim yanvarın 13-dən başlayırdı. İmperatorun adı ilə adlandırılan yuli təqvimi sonralar Papa XIII Qriqorinin göstərişi ilə düzəlişlər edilərək təkmilləşdirilib. Bu gün Yeni il bayramı dünyada istifadə olunan Qriqori təqviminə əsasən qeyd edilir.

Rusiyada Yeni ilin bayram edilməsini I Pyotrun adı ilə bağlayırlar. Belə ki, məhz rus imperoturunun göstərişi ilə 1699-cu ildən etibarən, yeni il bayram kimi qeyd edilməyə başlandı. XIX əsrdə yolka ağacı geniş yayılaraq, xalqın sevimli bayram simvoluna çevrildi. 1817-ci ildə Milad (daha sonra Yeni il) ağacını bəzəmək ənənəsinin təşəbbüskarı rus imperatriçası Aleksandra Fyodorovna – I Nikolayın əslən alman olan həyat yoldaşı olub. Çünki Milad ağacını bəzəmək ənənəsi o vaxt almanlarda var idi.

1920-ci ildə bolşeviklər dini ənənələrə zidd olduğunu bildirərək, yolka ağacını bəzəməyi qadağan etsələr də, bu, çox çəkmədi. 1936-cı ildə insanlar yenə də əvvəlki kimi yolka ağacı qurub bəzəməyə başladılar. Yolkanın üstündə müxtəlif oyuncaq, şirniyyat olsa da, başını 5 guşəli ulduz bəzədi. Bu gün Rusiya Federasiyası təntənəli Milad bayramı və Yeni il keçirən ölkələrdən sayılır və Yeni il ənənələri davam edir.

## Santa Klausun vətəni Laplandiya

Hündür dağlar, ucu-bucağı görünməyən bəyaz örpəyə bürünmüş meşələr və yollar... Bura Laplandiya–Santa Klausun vətənidir. Yeni il öncəsi müxtəlif ölkələrdən bura üz tutan turistlərin sayı daha da artır. Hər kəs bu sehrli və mistik Laplandiyada Yeni ili qarşılamağa can atır. Burada dağ xizəyi ən sevimli məşğuliyyətlərdən biridir.

Laplandiyada ikimərtəbəli taxta evciklər turistlərin sevimli məkanlarındandır. Ən möhtəşəm mehmanxana dördulduzlu "Santa Klaus" otelidir.

Laplandiyada turistlərin ən çox diqqətini çəkən yer Santa Klausun kəndidir.

Əfsanələrə görə, Santa Klaus Laplandiya vilayətində Rovaniemidən 170 kilometr aralıda, Kopke Korvatunturi kəndində doğulub. İndi buranı çoxları "Santa kəndi" adlandırır. Kəndə girən kimi, Santanın evinin ətrafında yanan işıqlar və onun ən yaxın köməkçisi olan maral qoşqusunu görmək olar. Ətrafda isə Santa Klausun cırtdanları gəzişirlər.

Deyilənə görə, Santa burada öz həyat yoldaşı Maura ilə yaşayır. Finlər Yeni il və Milad bayramının əsas qəhrəmanı olan ağsaqqal və mehriban babanı Youlupukki, ingilisdilli ölkələrin əhalisi isə Santa adlandırır.

Santa kəndi bura gələnləri, həqiqətən də öz sehrli ab-havası ilə heyran edir. Maralların qoşqusu ilə kənd gəzintisi, xudmani evlərin səliqəsi, alaqaranlıq havada yanan işıqlarla bəzənmiş dekorasiyalar insanda xoş ovqat yaradır. Laplandiya elə bir sehrli məkandır ki, tanınmış şəxslərin və dövlət rəhbərlərinin də diqqətini cəlb edir. Hələ 1950-ci ildə ABŞ eks-prezidenti Franklin Ruzveltin həyat yoldaşı Eleonora Ruzveltin Laplandiyaya gəldiyi məlumdur. O, Santa Klausun yaşadığı yerə gələn ilk turist hesab edilir. Hətta onun şərəfinə burada daxma da tikilib.

## Qeyri-adi bayram adətləri

Finlandiyada belə bir inanc var ki, Yeni ilin ilk günü kim erkən oyansa, ilboyu gümrah və enerjili olar. Yeni il gecəsi finlər qalay və ya əriyən şamı soyuq su ilə birgə bir vedrəyə boşaldır, suyun üzərində əmələ gələn formaya əsasən tutulan arzunun yerinə yetib-yetməyəcəyini müəyyən edirlər.

İspanlar isə gecəyarı küçələrə gəzintiyə çıxmalı və saatın vurduğu 12 zərb müddətində 12 üzüm dənəsi yeməlidirlər.

Danimarkada yeni ildə oyanan kimi stuldan atdanmaq adəti var. Danimarkalılar inanırlar ki, onlar bununla pis ruhları qovub yeni ilə qədəm qoyurlar. Digər qeyri-adi əməl isə qonşunun qapısı önündə boşqab sındırmaq adətidir. "Qapı önündə nə qədər çox qırılmış boşqab olsa, il o qədər uğurlu olar,"--deyirlər.

İrlandiyada Yeni il axşamı sadə vətəndaşlar evlərinin qapılarını açıq saxlayırlar. Onlar bayram günü istənilən şəxsi qonaq etməyə hazır olurlar. Bu zaman ev sahibi onu süfrəsinin başına dəvət edərək xalis irland viskisinə qonaq edir. Şəhərin baş meydanına toplaşan irlandlar Yeni ili qarşılayaraq, içki içir, rəqs edir və əylənirlər.

Yaponiyada Yeni ili bütün məbədlərdən 108 zəngin çalınması ilə qarşılayırlar. Yüz səkkiz rəqəmi pisliklərin sayını simvolizə edir və inanırlar ki, zəngin hər zərbi ilə pisliklər yox olur. Zəngin sonuncu zərbində isə insanlar küçələrə çıxır, Yeni ilin ilk səhərini qarşılayırlar. Yaponlar hesab edir ki, səhərin erkən vaxtlarında sahilə xoşbəxtlik allahları yan alır, ona görə də Yeni ilin ilk gününü və Günəşin şəfəqdən doğuşunu seyr edərək bayramı qeyd etmək daha vacibdir. Yaponlar kadomatsu adlı yolka ağacı bəzəyirlər. Yaponlara məxsus bu yeni il ağacı bambuk və şam ağacı budaqları, düyü samanı, eləcə də mandarinlə bəzədilir və yanvarın əvvəlində məbədə aparılaraq yandırılır.

Ritmik rəqsləri və filmləri ilə məşhur olan Hindistanda manqo ağacını meyvə və göyərti ilə bəzəyir və süfrəyə ən istiotlu yeməklər düzürlər. Hindlilər inanırlar ki, yeməklər nə qədər istiotlu olarsa, il o qədər yaxşı olar.

Kubada Yeni ili əsas ailəvi bayram hesab edirlər. Yolka əvəzinə burada palma və ya iynəyarpaqlı bitki olan araukariya ağacı bəzədilir. Uşaqlar Şaxta baba əvəzinə sehrbazlar olan Qaspar, Baltasar və Melçora məktub yazaraq arzularını bildirirlər.

Panamalılar hesab edirlər ki, bayramda səs-küy xoşbəxtlik gətirir. Ona görə də maşınların siqnallarını uzun-uzadı səsləndirir, qışqırır və fit çalırlar.

Çilidə sakinlər gecəyarısı ayaqqabılarına pul qoyur və mərcimək yeyirlər ki, növbəti ildə daha da tərəqqi etsinlər və əhalinin yaxşı rifahı olsun.

Karnaval və festivalları ilə məşhur olan Braziliyada Yeni il gecəsi Rio sakinləri Dəniz ilahəsi Yemanceyə hədiyyələr--güllər, şamlar, güzgü və dekorasiyalar gətirir, ötən ilə görə minnətdarlıq əlaməti olaraq onları dənizə atır, növbəti ilin uğurlu olması üçün arzularını bildirirlər. Okean sahilində atəşfəşanlıq və bayram şənlikləri göz oxşayır.

Elə ölkələr var ki, Yeni ili qarsız və şaxtasız qeyd edir. Məsələn, Avstraliyada Yeni il yay fəslinə təsadüf edir. Odur ki, Avstraliyada insanlar bayramı çimərliklərdə, açıq havada qeyd edirlər. Santa Klaus isə Avropada olduğu kimi ağ saqqala və qırmızı papağa malik olsa da, görkəmi yaya uyğun olur.

Kubada isə bayram günü hər kəs evdəki qab-qacağı, stəkanları su ilə doldurur. Əqrəblər 12-ni göstərəndə, qablardakı bütün sular evlərin pəncərəsindən çölə axıdılır. Kubalılar inanır ki, bununla Yeni il su kimi axarlı və uğurlu il olur.

## Yeni il süfrəsini özəl təamlar bəzəyir

Hər xalq Yeni il bayramını öz doğmaları və ailəsi ilə keçirərkən həm də bayram süfrəsinə xüsusi diqqət edir, ən ləziz təamlarına üstünlük verir. İngilislərin bayram süfrəsini əsasən alma, üzüm, qoz, un və limondan hazırlanmış ləziz desert bəzəyir.

Danimarkalıların süfrəsində isə içi quru meyvələrlə doldurulub qızardılmış qaz əti, kartof və qırmızı kələmlə birgə bişmiş donuz əti, desert üçün qryutse adlanan qatı meyvə kiseli və qızardılmış badamla hazırlanmış düyü sıyığını görmək olar. Onlar həmin gün ya pivəyə, ya da isti şəraba müxtəlif ədviyyatlar əlavə edilməklə hazırlanan xüsusi qlyoq adlı içkiyə üstünlük verirlər.

İsveçlilər əsas desert olan badamlı düyü pudinqini sevirlər. Odur ki, bayram axşamı pudinqin badam olan hissəsi kimin boşqabına düşsə, ilin 12 ayının onun üçün uğurlu keçəcəyinə inanırlar.

Şərabları ilə məşhur olan Fransada bayramda hind toyuğu və ya qaz, midyə, ördək və ya qaz ciyərindən hazırlanmış xüsusi yemək olan fua-qra və şampan əsas təamlardandır.

Almanların süfrəsində bayram günü mütləq alma və qoz olur. Alma yaxşı və pis əməllərin bəhrəsini, qoz isə həyatda sirr və çətinlikləri simvolizə edir. Adətən, onların hər ikisini desertə əlavə edir, ya da ət yeməklərində istifadə edirlər.

Avstriya və Macarıstanda isə müxtəlif giləmeyvə, qoz ləpəsi və şirə ilə bəzədilən ənənəvi desert–ştrudel bayram süfrəsində xüsusi yer tutur və dondurma ilə birgə qonaqlara təqdim edilir. Avstriya ailəsinin süfrəsində, həmçinin qızardılmış çoşkanın əti xüsusi yer tutur və onlar inanırlar ki, bu yeməklə yanaşı, dördyarpaqlı yonca Yeni ildə uğur gətirəcək.

Portuqal ailəsinin süfrəsində bayram axşamı mütləq üzüm olmalıdır. Bu xalq üzümü bol-bərəkətin və xoşbəxt ailənin simvolu hesab edir. Onlar gecə yarısına kimi arzu tutub 12 üzüm giləsi yeyirlər.

ABŞ-da əksər bayramlarda, Şükranlıq Günündə olduğu kimi, Yeni ildə də hind toyuğundan hazırlanan yemək süfrələrin bəzəyi sayılır. Meksikada ən populyar yeməklərdən biri tamaledir. Qarğıdalı unundan hazırlanmış xəmirin içində pendir və digər məmulatlar olur və üzəri qarğıdalı qabığı və ya banan yarpağı ilə örtülür. Romeritos adlanan yemək isə krevetka və kartofdan ibarətdir.

Yaponların Yeni ildə düyü unundan hazırlanmış "Moti" pirojnası sevimli şirniyyatlardandır. Toşikoşi əriştəsindən hazırlanan yemək, siyənək kürüsü, krevetkalar, düyü unundan bişirilən qoğallar "Gündoğar ölkə"də süfrələrin bayram naz-nemətləridir.

## Bolluq rəmzi – Siçan ili gəlir

Donuz ili olan 2019-cu ilə əlvida deyib, siçan üzərində təhvil olan 2020-ci ili təntənə ilə qarşılayırıq. Bəs görəsən, metal siçan ilini necə qarşılamalı, ondan nə gözləməliyik? Yaxud metal siçan ili bizə Yeni ildə nə vəd edir?!

Şərq təqviminə əsasən, siçan müdrikliyi və var-dövləti simvolizə edir. Ağ siçan fikir təmizliyi və hörməti, səmimiyyəti və xoş niyyəti, cəsarət və hiyləgərliyi bildirir, ambisiyalı insanlara uğur vəd edir. Siçan elə bir heyvandır ki, istənilən yolla qarşısına qoyduğu məqsədinə çata bilir.

Hesab edilir ki, karyerada yüksəliş üçün uyğun vaxt gözləyən insanlardan ötrü bu il uğurludur. 2020-ci il ailə qurmaq arzusunda olan şəxslər üçün xoşbəxtlik vəd edir. Öz istək və niyyətlərinə ədalətsiz yolla çatmaq istəyənlər məyusluqla üzləşəcək, odur ki, çalışın, bu il arzularınızı öz zəhmətiniz hesabına əldə edəsiniz. Əgər işinizi fəaliyyət göstərməyib taleyin ümidinə buraxaraq, ondan gözləsəniz, heç nə əldə etməyəcəksiniz. Axı siçan zəhmətkeş heyvandır, o zəhməti sevir. Odur ki, bu il uğurun yarısı siçanın zəhmətkeş olmasından və çox işləməsindən keçir. Bu il, həmçinin karyera qurmaq istəyənlərə, hədəfə çatmaq istəyənlərə düşərli ildir.

Əgər öz işinizi böyük həvəs və zövqlə görürsünüzsə, fəaliyyətiniz yaradıcılıqla bağlıdırsa, o zaman siçan ili sizə daha çox uğur gətirəcək. İstənilən işin öhdəsindən yüksək səviyyədə gələcəksiniz.

## Siçan ilində dünyada və ölkəmizdə baş vermiş ən önəmli hadisələr

Məlumdur ki, siçan ili digərlərindən öz zəhmətkeşliyi ilə seçildiyindən, dünyada və eləcə də ölkəmizdə baş vermiş ən önəmli hadisələrə də öz təsirini göstərdiyi şübhəsizdir. Odur ki, ümumilikdə ötən illərə nəzər salsaq, bunun şahidi olarıq.

1996-cı ildə ilk dəfə Dolli adı verilən klonlaşdırılmış heyvan – qoyunun yaradılması, Kofi Annanın BMT-nin Baş katibi seçilməsi, Venesiyada tarixi opera binası olan "La Fenice"də baş verən yanğın və digər tarixi hadisələr siçan ilinin payına düşüb.

Pekin Yay Olimpiadası, Barak Obamanın ABŞ prezident seçkilərində qalib gəlməsi də, 2008-ci il siçan ilində dünya mediasında ən çox müzakirə edilmiş müsbət hadisələrdən olub.

Ümumiyyətlə, siçan illəri müstəqil Azərbaycan dövlətinin çağdaş tarixi üçün də önəmli olub.

2008-ci il Azərbaycanın ictimai-siyasi həyatında önəmli uğurlu illərdən olub. 2008-ci ilin oktyabrın 18-də keçirilmiş prezident seçkilərində xalq Prezident İlham Əliyevə yekdilliklə etimad göstərib.

Azərbaycan Xalq Cümhuriyyətinin 90 illik yubileyinin təntənəli şəkildə qeyd edilməsi, Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi ilə bağlı hərbi paradın keçirilməsi, Beynəlxalq Muğam Mərkəzinin açılışı 2008-ci – siçan ilinin uğurlarındandır. Ölkəmizin 2008-ci il Yay Olimpiya Oyunlarında 1 qızıl, 1 gümüş və 4 bürünc qazanması da siçan ilinə təsadüf edir.

Hüseyn Cavidin anadan olmasının 114 illiyi münasibəti ilə 1996-cı il oktyabrın 29-da ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə ucaldılmış memarlıq-xatirə kompleksinin açılışı ilin ən böyük mədəniyyət hadisəsi olub.

Qoy dünyanın həyəcan və sevinclə gözlədiyi Yeni il bütün insanlara xoşbəxtlik, firavanlıq, əmin-amanlıq gətirsin. Planetin dörd bir tərəfinə səpələnmiş soydaşlarımız Dünya Azərbaycanlılarının Həmrəylik Gününü ilin son günündə qeyd etməklə, daha mehriban, həmrəy olsunlar, ölkəmiz 2020-ci ildə də böyük uğur və nailiyyətlər əldə edərək, daha da qüdrətlənsin və çiçəklənsin.

**Əfsanə BAYRAMQIZI,**
**"Xalq qəzeti"**